*Yeni dərs ili qarşısında*

# Tədris ilinə yeni uğurlar qazanmaq əzmilə

**Bu gün Azərbaycanda təhsilə qayğı ən yüksək səviyyədədir. Bu sahədə uğurla həyata keçirilən islahatlar ilk növbədə Azərbaycanın xoşbəxt gələcəyinə hesablanmışdır. Müasir qloballaşma əsrində Azərbaycanda milli tərəqqinin yeganə yolu elm və təhsilin, yeni biliklərin, intellektual əməyin inkişafından və informasiya texnologiyalarının bütün idarəetmədə geniş tətbiqindən keçir. Təhsilin bütün istiqamətlər üzrə proporsional inkişafı ciddi investisiya tələb edən məsələ olduğundan dövlətin son illərdəki maliyyə imkanları bu sahədə qlobal layhələrə başlamağa imkan vermişdir.**

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin hər iki dönəmində bu sahənin müasir tələblərə cavab verməsi, təhsil müəssisələrinin yeniləşdirilməsinə, onların maddi-texniki bazasının möhkəmləndirilməsinə, təhsilin keyfiyyətinin yüksəldilməsinə şəxsən özü nəzarət etmişdir. Bu gün Prezident İlham Əliyev ümummilli liderin həyata keçirdiyi həmin siyasəti uğurla davam etdirir. Ölkə təhsili son dövrlərdə dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil edilmişdir. Heydər Əliyev Fondunun təhsilin inkişafına verdiyi dəstək isə öz əhəmiyyəti ilə seçilir, Fond ölkədə məktəb tikintisində yaxından iştirak etməklə yanaşı, onların əyani vəsaitlər, məktəb ləvazimatı ilə təmin olunmasında mühüm rol oynayır.

Son illər Azərbaycanda, o cümlədən paytaxt Bakıda geniş vüsət almış yeni-yeni müasir məktəblərin tikintisi və əsaslı şəkildə təmiri, burada şagirdlərin yüksək bilik, təhsil almaları üçün yaradılmış şərait təhsilin keyfiyyətinin yüksəldilməsini təmin etmişdir. Ayrı-ayrı təhsil müəssisələrində təlim-tərbiyə, təhsil ən yüksək səviyyədə aparılır. BŞTİ-nin tabeliyində fəaliyyət göstərən, uğurları ilə seçilən təhsil ocaqlarından biri də **Xətai rayonu 138 saylı tam orta məktəbdir.** Yeni tədris ilinin başlanğıcı ərəfəsində **məktəbin direktoru Mirfaiq Mirheydərli** ilə görüşüb bu və ya digər məsələlər, təhsil uğurları barədə məlumat verməsini xahiş etdik.

**– Mirfaiq müəllim, yeni dərs ilinin başlanmasına sayılı günlər qalır. 2019-2020-ci tədris ilində məktəbə hazırlıqla bağlı məlumat verməyinizi xahiş edirik.**

– Əvvələ, qeyd edim ki, hər il olduğu kimi bu ildə yeni dərs ilinə hazırlıq istiqamətində işlər aparılır. Müəllimlərin dərs bölgüsü diaqnostik qiymətləndirmənin nəticələrinə uyğun olaraq aparılmış, dərs cədvəli üzərində iş davam etdirilir. Dövlət tərəfindən şagirdlərə verilən dərsliklərin paylanması prosesi artıq yekunlaşıb. Müəllimlər məzuniyyətdən sonra müxtəlif təlimlərə cəlb olunuşlar. İnklüziv təhsil ilə bağlı deyim ki, respublikada həyata keçirilən 4 məktəbdən biri olaraq məktəbimizdə ilk dəfə olaraq 5-ci siniflərdə bütün fənlərdən dərs deyən müəllimlərin hazırlığı davam etdirilir. Rəqəmsal bacarıqlar layihəsi çərçivəsində məktəbin informatika müəllimlərinin hazırlığı həyata keçirilir. Bu məqsədlə məktəbdə əlavə otaqlar - 2 yeni kompüter otağı yaradılmışdır. Bununla yanaşı yay tətili müddətində bu deyilənlərdən heç də az əhəmiyyət kəsb etməyən, xüsusən təhlükəsizliyin təmini ilə bağlı işlər görülmüşdür. Belə ki, məktəbdə yanğına qarşı siqnalizasiya sistemi yeniləşdirilmiş, yanğına qarşı su ehtiyat hovuzu əsaslı şəkildə yenidən qurulmuş, məktəbin damında istifadə olunmuş tez alışan materiallara, xüsusən ağac materiallarına yanğına qarşı xüsusi məhlullar hopdurulmuşdur. Bir sözlə məktəb bütün istiqamətlər üzrə yeni tədris ilinə əsasən hazırdır.

**– Ötən tədris ilində məktəbin əldə etdiyi uğurlar barədə nə deyə bilərsiniz?**

– Vurğulayım ki, hər il olduğu kimi 2018-2019-cu tədris ili də məktəbimiz üçün uğurlu olmuşdur. Nəzərdə tutulan bütün işlər, tədbirlər həyata keçirildi. Həyata keçirilən tədbirlərin sırası olduqca çoxdur. Yəqin ki, onları burada sadalamağa ehtiyac yoxdur. Qısa deyim ki, VI-VII sinif məktəbliləri arasında IV fənn müsabiqəsində VII sinif şagirdi Fidan Orucova informatika fənni üzrə I yerə layiq görülmüşdür. Məktəbin 11b sinif şagirdi Emin Əliyev riyaziyyat fənnindən, 10b sinif şagirdi Səbinə Səfərəliyeva, 11c sinif şagirdləri Mövsün Mehrəliyev, Anar Eyvazov yüksək nəticə göstərərək respublika fənn olimpiadasının respublika turunda iştirak etmişlər. 01.05.2019-cu il tarixdə Az.DPU-nun filologiya fakültəsinin dekanı, professor Mahirə xanım Hüseynova fakültənin müəllim heyəti ilə birlikdə qonaq olmuş, məktəbin şagirdləri ilə birgə İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar hazırladıqları tədbirdə iştirak etmişlər. Ali məktəblərə qəbulun göstəriciləri barədə deyim ki, qəbul faizi 65,82 təşkil etmişdir. Qarşımıza məqsəd qoymuşuq ki, bu göstəricini daha da artıraq.

**– Mirfaiq müəllim, sizin məktəb inklüziv təhsilin tətbiqi üzrə təcrübəsi olan məktəbdir. İnklüziv təhsilin əhəmiyyəti barədə fikirlərinizi bizimlə bölüşün.**

– Azərbaycan Respublikası Təhsil nazirinin məlum əmrinə əsasən məktəbin ibtidai siniflərində artıq 5 ilə yaxındır ki, inklüziv təhsilin tətbiqi istiqamətində pilot layihə həyata keçirilir. Respublikamızda cəmi 4 məktəbdə Almaniya modeli öyrənilməklə inklüziv təhsil tətbiq olunur. Hələlik tətbiq etdiyimiz ümumtəhsil siniflərində saglamlıq imkanı məhdud uşaqların sağlam uşaqlarla birlikdə təhsilin həyata keçirilməsi formatıdır. Görülən işlər, əldə etdiyimiz nəticələr onu deməyə əsas verir ki, bu format uğurludur. Çünki bu format sağlamlıq imkanı məhdud uşaqlarla yanaşı digər uşaqların inkişafına da müsbət təsir göstərir.

**– Digər uşaqların inkişafına necə müsbət təsir göstərir?**

– Bilirsiniz necədir — əslində indi biz tam, yetkin vətəndaş yetişdirə biləcəyik. Çünki indiyə qədər olduğundan fərqli olaraq sağlam uşaqlar yeni obyektlə tanış olurlar. Əgər onlar əvvəl yalnız özləri ilə ünsiyyətdə olurdularsa, artıq indi onlar həm də sağlamlıq imkanı məhdud uşaqlarla ünsiyyətdə olaraq onların davranışını, psixologiyasını, nəyə-necə reaksiya verməsi və s. kimi məqamlarla tanış olur və qarşılaşırlar. Və hər vəziyyətə uyğunlaşmaq üçün axtarışda olurlar. Bu axtarışlar, tapşırıqlar, cavablar, düşüncələr onları inkişaf etdirməyə başlayır. Sağlamlıq imkanı məhdud insanların cəmiyyətə adaptasiya prosesində məktəb mərhələsinin uğurlu alınmasının bir tərəfi də digər uşaqların inkişafıdır. Bununla bağlı yaradılan siniflərdə tədrisin vəziyyəti ilə bağlı nəinki ölkəmizdə maraqlı olan təşkilatlar, yuxarı təhsil qurumları prosedurun gedişinə nəzarət və köməklik edir. Eləcə də bu istiqamətdə fəaliyyət göstərən beynəlxalq qurumların nümayəndələri də məktəbdə olur, proseslə maraqlanır və öz fikirlərini bildirirlər. Azərbaycan Respublikası Təhsil Nazirliyi və



UNİCEF-in birgə layihəsi olan "İbtidai siniflərdə İnklüziv Təhsilin Tətbiqi" layihəsi çərçivəsində UNİCEF-in nümayəndələri məktəbdə olmuş, onları maraqlandıran materiallarla tanış olmuşlar. İnklüziv təhsillə bağlı inklüziv siniflərdə BŞTİ mövcud qaydalardan kənara çıxma zərurəti yarandıqda problemin aradan qaldırılmasında əməli köməyini hər zaman göstərir.

**– Son illər ölkə təhsilinin inkişafı istiqamətində Təhsil Nazirliyi tərəfindən aparılan islahatları necə dəyərləndirirsiniz?**

– Təhsil elə bir sahədir ki, burada inkişafı təmin etmək üçün daim qloballaşan dünyada bu sahədə inkişaf etmiş dövlətlərdə mövcud olan vəziyyəti öyrənməklə ölkəmizin inkişaf tempi ilə ayaqlaşa biləcək təhsil sistemi olmalıdır. Başa düşülən odur ki, dünyada gedən proseslər, ölkəmizdəki mövcud vəziyyət dikte edir ki, təhsildə islahatlara kəsilməz bir proses kimi baxaq. Son illər vətəndaşların razı qalması, xoşagəlməz meyillərin aradan qaldırılması üçün bir sıra maraqlı islahatlar həyata keçirilməkdədir. Bu sırada məktəbəhazırlıq qruplarının dövlət tərəfindən qarşılanaraq həyata keçirilməsi, bu qrupların, 1-ci sinfə qəbulun avqust ayından etibarən başlamasıdır. Şagirdlərin bir məktəbdən digərinə köçürülməsi prosesi onlayn qaydada həyata keçirilməkdədir. Lakin bu proses bir qədər ağrılı keçir. Ancaq nə qədər ağrılı olsa da bu yolla getməyə davam etməliyik. Bu yol neqativ halların qarşısını alan bir yoldur. Müəllimlərin hazırlanması istiqamətində müxtəlifyönlü tədbirlər həyata keçirilir. Bu tədbirlər öz-özlüyündə olduqca müsbət qiymətləndirilməlidir. Hesab edirəm ki, bu sahədə bir sistemin yaradılmasına ehtiyac vardır. Onu da qeyd edim ki, Azərbaycanın 7 rayonunda "Resurs Mərkəz"ləri yaradılmışdır ki, onların biri də bizim məktəbimizdir. Məktəbə etimad göstərdiklərinə görə Təhsil Nazirliyinin rəhbərliyinə öz təşəkkürümü bildirirəm.

**Əli SADIQOV,**
**"Respublika".**